# Darıxmaq

— *Doktor-Yazar İlhamə Müslümova* · 11 Ocak 2025



Gedən gedir... heç düşünmür qalanı...
Qalanınsa cəhənnəmdi  hər anı...
Özləməkdir  səni dərdə salanı,
Ürəyindən vurulmaqdı darıxmaq.

Külək döyən qapını o sanarsan....
Həsrətinin soyuğundan donarsan,
Yoxdu deyə için-için yanarsan...
Öz yağında qovrulmaqdı  darıxmaq.

Ətirinin qoxusu var  otaqda,
Saçlarının teli gəzər yataqda...
Gecələri uyuyarsan ayaqda,
Göz yaşıyla yoğrulmaqdı darıxmaq.

Küçələrdə axtararsan izini,
Yada düşər xatirənin həzini...
Xatırlayıb baxışını, sözünü ,
Küləklərlə sovrulmaqdı darıxmaq.

O getdisə həyat durar gözündə,
Güzgülərdə  tanış gəlməz üzün də…
Öz-özünü tapammazsan özün də…
Gedən ilə yox olmaqdı darıxmaq.

Darıxmaq(türkcə-özləmək)